**E-qeydiyyatın tətbiqi haqqında**

Vergilər Nazirliyi bildirir ki, son illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan Respublikasında biznesə başlama prosedurаları əsaslı surətdə sadələşdirilmişdir. Belə ki, 2011-2013-cü illərdə ölkəmizdə aparılmış **"E-qeydiyyat" islahatı** sahibkarların biznesə başlaması prosedurlarını əhəmiyyətli dərəcədə asanlaşdırmasına şərait yaratmışdır.

**Fərdi sahibkarların "e-qeydiyyat" sistemi** 2011-ci ilin 1 iyul tarixdən başlamaqla müvəffəqiyyətlə tətbiq edilməkdədir. 01.01.2015-ci il tarixədək Azərbaycanda 82,7 mindən çox fərdi sahibkarın qeydiyyatı bu üsulla aparılmışdır. 2012-ci ilin nəticələrinə görə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin 74,4 %-i vergi orqanına getmədən internet vasitəsilə vergi uçotuna dayanmışdır.

28 noyabr 2014-cü il tarixdə isə Azərbaycan Respubklikasının Vergi Məcəlləsinə edilmiş dəyişikliklə fiziki şəxslərin vergi uçotuna alınması sahəsində növbəti islahat həyata keçirilmiş oldu. Belə ki, artıq fiziki şəxslərin elektron formada vergi uçotuna alınmasının dərhal həyata keçirilməsinin tənzimlənməsi qanunvericilikdə öz əksini tapmışdır.

Məlumat üçün bildiririk ki, fiziki şəxslər vergi uçotuna dayanmaq üçün Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində "Fərdi sahibkarların onlayn qeydiyyatı" bölməsinə (**https://www.e-taxes.gov.az/#**) daxil olaraq vergi qeydiyyatından keçirlər.

2012-ci ilin fevral ayından isə Azərbaycan Respublikasında yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin də qeydiyyatı elektron üsulla aparılmaqdadır. **Kommersiya hüquqi şəxslərin "e-qeydiyyat" sisteminin** tətbiqi üçün Azərbaycan Respublikasının 4 qanunvericilik aktına dəyişikliklər edilmişdir. Bu qanunların qüvvəyə minməsi yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlər üçün qeydiyyat öncəki prosedurаlara olan tələbləri tamamilə aradan qaldırmış və elektron imzadan istifadə etməklə sənədlərin qeydiyyat orqanına təqdim etmə imkanını yaratmışdır.

Qanunlara edilmiş dəyişikliklərlə aşağıdakı linklərdə tanış olmaq olar:

- **http://www.taxes.gov.az/modul.php?name=qanun&news=931** ("Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında"Azərbaycan Respublikasının 12 dekabr 2003-cü il tarixli 560-IIQ №-li Qanunu (2.0.10-2.0.13, 4.3, 4.6, 5.4.1, 5-1(5-1.1-5-1.8), 11.3.1-1, 12.12 və 14.2.2-cü maddələr));
- **http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=4&lang=_az** (Azərbaycan Respublikasının 28 dekabr1999-cu il tarixli 779-IQ №-li Qanunu

ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 87.3-ci və 90.2-ci maddələri);

-  **http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=4&lang=_az** (Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli 906-IQ №-li Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 200-1-ci maddəsi);
-  **http://www.taxes.gov.az/modul.php?name=qanun&news=851** ("Dövlət rüsumu haqqında"Azərbaycan Respublikasının 4 dekabr 2001-ci il tarixli **223-IIQ**№-li Qanununun 20-1.3-cü maddəsi).

E-qeydiyyat sisteminin tətbiqi hüquqi şəxsləri dövlət qeydiyyatı ərəfəsində yerinə yetirilməli olan 3 məcburi proseduradan keçmək zərurətini tamamilə aradan qaldırmış və ümumilikdə qeydiyyatın aparılmasına sərf edilən müddəti azaltmışdır. Nəticədə hüquqi şəxslərin biznesə başlama prosedurları əhəmiyyətli dərəcədə sadələşmişdir.

**İslahatdan əvvəl və islahatdan sonra yerinə yetirilən prosedurlar**

| **Proseduranın adı** | **İslahatdan əvvəl (kağız daşıyıcılarında)** | | | **İslahatdan sonra (e_qeydiyyat)** | | | **Qanuni əsasları** |
|---|---|---|---|---|---|---|---|
| | **prose-durların sayı** | **Vaxt (gün)** | **Dəyər AZN** | **prose-durların sayı** | **Vaxt** | **Dəyər AZN** | |
| Hüquqi ünvan sənədi | 1 | 1 | 0 | 0 | 0 | 0 | http://www.taxes.gov.az/modul.php?name=qanun&news=931 |
| Notarial təsdiq | 1 | 1 | 30 | 0 | 0 | 0 | http://www.taxes.gov.az/modul.php?name=qanun&news=931 |
| Ödənişlərin aparılması | 1 | 1 | 31 | 0 | 0 | 0 | http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=4&lang=_az<br>http://www.taxes.gov.az/modul.php?name=qanun&news=851 |
| Qeydiyyat | 1 | 3 | 0 | 1 | 1 | 0 | http://www.taxes.gov.az/modul.php?name=qanun&news=931 |
| Möhür | 1 | 1 | 4-40 | 1 | 1 | 4-40 | |
| Bank hesabı | 1 | 1 | 30 | 0 | 0 | 0 | |
| E-imza | 0 | 0 | 0 | 1 | 1 | 18 | http://e-qanun.az/print.php?internal=view&target=1&docid=28386&doctype=0<br>http://www.taxes.gov.az/modul.php?name=metbuat&bolme=pressreliz&pid=872&lang= |
| **Cəmi:** | **6** | **8** | **95** | **3** | **3** | **22** | |

01.01.2015-ci il tarixə 7043 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin qeydiyyatı bu mütərəqqi üsulla aparılmışdır. Təhlil göstərir ki, 2012-ci ilin 2-ci yarısından

etibarən biznesə hüquqi şəxs yaratmaqla başlayan sahibkarlar daha tez-tez e-qeydiyyat xidmətdən yararlanırlar. 2013-cü ilin nəticələrinə görə e-qeydiyyatın xüsusi çəkisi ümumi qeydiyyatda cəmi 45,2% təşkil etmişdir.

Aşağıda verilən diaqramlar bitmiş aylar üzrə e-qeydiyyatın dinamikasını özündə əks etdirir (mart ayında cəmi 15 iş günü olmuşdur):






2012-ci ilin 1 iyul tarixindən 01.01.2015-ci il tarixədək kommersiya hüquqi şəxslərin qeydiyyatı məqsədilə qeydiyyat orqanlarına təqdim edilmiş 17823 ərizədən 10939-u kağız daşıyıcılar vasitəsilə, 6884-ü isə elektron təqdim olunmuşdur. Ərizələrin icra müddəti aşağıdakı kimi olmuşdur:

| Ərizənin icra müddəti | Ərizənin sayı | İcra edilmişdir (%-lə) | Kağız daşıyıcıda | | E-qeydiyyat | |
|---|---|---|---|---|---|---|
| | | | Ərizənin sayı | İcra edilmişdir (%-lə) | Ərizənin sayı | İcra edilmişdir (%-lə) |
| 1 gün | 15157 | 85,0 | 9090 | 83,1 | 6067 | 88,2 |
| o cümlədən, dərhal | 7976 | 44,8 | 4420 | 40,4 | 3556 | 51,7 |
| 2 gün | 1618 | 9,1 | 1127 | 10,3 | 491 | 7,1 |
| 3 gün | 1048 | 5,9 | 722 | 6,6 | 326 | 4,7 |
| Cəmi | 17823 | 100 | 10939 | 100 | 6884 | 100 |

**Qeyd:** Ərizə iş gününün sonunda, iş günü bitdikdən sonra və ya qeyri-iş günlərində təqdim olunduqda onun icrası növbəti ilk iş günündə başa çatdırılır.

Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin e-qeydiyyatının tətbiq edilməsi barədə məlumat Avropa İttifaqının Şərq Tərəfdaşlığı təşəbbüsü çərçivəsində "İqtisadi İnteqrasiya və Aİ siyasətinə uyğunlaşma" platformasının "Kiçik və orta sahibkarlıq" Paneli tərəfindən hazırlanmış "Müəssisə siyasətinin həyata keçirilməsi Hesabatı"na, Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurası tərəfindən qəbul edilmiş "MDB İştirakçı Dövlətlərinin iş mühiti, investorlara güzəşt, azad iqtisadi zonalar, sənaye və elmi-texniki parklar barədə İcmal"a daxil edilmişdir.

Vergilər Nazirliyinin verdiyi təklif əsasında, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununun 7-1-ci maddəsində 22.11.2013-cü il tarixdə dəyişiklik aparılmışdır. (Bax: http://www.president.az/articles/10717). Həmin dəyişikliyə əsasən 7-1-ci maddə aşağıdakı redaksiyada verilmişdir: “Hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun, o cümlədən xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialının dövlət qeydiyyatı 2 gündən gec olmayaraq həyata keçirilməlidir. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı sürətli elektron dövlət qeydiyyatı zamanı dərhal, adi elektron dövlət qeydiyyatı zamanı isə 1 gündən gec olmayaraq həyata keçirilməlidir.

Növbəti islahatla, elektron qeydiyyat zamanı elektron ərizəyə əlavə edilmiş sənədlərin sayı azaldılmışdır. Belə ki, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə 28.11.2014-cü il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən elektron ərizəyə yalnız nizamnamə əlavə edilir.

Həmçinin cari ildə daha bir islahat həyata keçirilməklə, e-imzanın alınması proseduru da sadələşdirilmişdir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı i 28 yanvar tarixli 27 nömrəli qərarı ilə təsdiq edilmiş “Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qaydalar”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabionetinin 08.09.2014-cü il tarixli 300 nömrəli qərarına əsasən sənədlərin yoxlanılması və sertifikatın verilməsi ərizənin daxil olduğu tarixdən 1 (bir) iş günü ərzində aparılır.

2014-cü ilin əvvəlindən 01.01.2015-ci il tarixədək qeydiyyat orqanlarına təqdim edilmiş kağız daşıyıcılarda kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının 84,1 faizi 1 gün ərzində, 15,9 faizi isə 2 gün ərzində həyata keçirilmişdir. Elektron qeydiyyat zamanı isə dövlət qeydiyyatının 100 faizi 1 gün ərzində, o cümlədən 50,7 faizi dərhal həyata keçirilmişdir.

| Ərizənin icra müddəti | Ərizənin sayı | İcra edilmişdir (%-lə) | Kağız daşıyıcıda | | E-qeydiyyat | |
|---|---|---|---|---|---|---|
| | | | Ərizənin sayı | İcra edilmişdir (%-lə) | Ərizənin sayı | İcra edilmişdir (%-lə) |
| 1 gün | 6745 | 89,9 | 3997 | 84,1 | 2748 | 100 |
| o cümlədən, dərhal | 3451 | 46,0 | 2057 | 44,1 | 1394 | 50,7 |
| 2 gün | 757 | 10,1 | 757 | 15,9 | 0 | 0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Cəmi | 7502 | 100 | 4754 | 100 | 2748 | 100 |

Statistikadan da göründüyü kimi, "Biznesə başlama" indikatorunda qeydiyyat proseduru 1 gün kimi qeyd edilməlidir.

2012-ci ilin sonlarında Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən keçirilmiş respublika müsabiqəsində "Ən yaxşı elektron dövlət xidməti" nominasiyasında Vergilər Nazirliyinin "Kommersiya hüquqi şəxslərin e-qeydiyyatı" layihəsi qalib elan edilmişdir.

Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin qeydiyyatdan keçirilməsi üçün e-imza kartınızla Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində **https://login.e-taxes.gov.az/login/** linkinə daxil ola bilərsiniz.

2012-ci il, 2013-cü il və 2014-cü ilin əvvəlindən adi və elektron qaydada dövlət qeydiyyata alınmış hüquqi şəxslərin siyahısı burada verilir: http://www.taxes.gov.az/uploads/siyahi.xls